**Əmək bazarında işçi problemi…**

...Əslində, bu mövzuya müraciət etməyimə bu günlərdə respublikada fəaliyyət göstərən şirkətlərdən birinin işə qəbulla bağlı ölkə KİV-lərində rast gəldiyim elanı səbəb oldu. Elanda göstərilir ki, həmin müəssisə yaşı 30-dan çox olmamaqla işə yüksək təcrübəsi və bacarığı olan (?) çilingər, qaynaqçı və digər sahələr üzrə işçi axtarır. Niyə 30 yaş?! Bu suala cavab tapmaq üçün elan verən şirkətin müvafiq şöbəsində çalışan əməkdaşından nə qədər cəhd etsəm də düzgün və əsaslandırılmış məlumat ala bilmədim. Qarşı tərəf işə qəbul zamanı gənc kadrlara üstünlük verildiyini əsaslandırmağa çalışsa da, digər məqamlara aydınlıq gətirməkdə çətinlik çəkirdi...

Bu problem hazırda əmək bazarında ən çox təsadüf olunan məsələlərdəndir, yaşı 40, 50, bəzən hətta 30-dan çox olan insanların işə qəbuluna əngəllərin yaradılması, bir sıra özəl şirkətlərdə 40-50 yaşlı insanların işdən çıxarılması hallarına rast gəlinir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov bildirir ki, işə qəbul zamanı yaş məsələsinə görə məhdudiyyətlərin qoyulması əmək qanunvericiliyinin pozulması və insanlar arasında ayrı-seçkiliyin əlamətidir. Bu, açıq şəkildə vətəndaşların əmək hüquqlarının pozulması deməkdir. Vətəndaşın normal əmək qabiliyyəti varsa, onun pensiya yaşına qədər işlədiyi müəssisədən çıxarılması yolverilməz hesab olunur. Ölkə Konstitusiyasında və digər qanunvericilik sənədlərində göstərilib ki, əmək qabiliyyətli insanların 65 yaşa qədər işə qəbuluna qadağalar tətbiq oluna bilməz, eyni zamanda işlədiyi müəssisələrdən əsassız çıxarılması yolverilməzdir. Konstitusiyada hər bir insanın məşğulluğunun təmin edilməsi dövlətin əsas məqsədlərindən biri kimi təsbit olunub. Ali Qanunda qeyd olunub ki, hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

Sahib Məmmədovun qeyd etdiyinə görə, normal iş qabiliyyəti olan, öz peşəsi üzrə təcrübəyə malik iş axtaran vətəndaşlar işə qəbulla bağlı bu cür elanları rəsmi sənəd kimi Dövlət Əmək Müfəttişliyinə təqdim edərək, həmin şirkət barəsində qanunamüvafiq tədbirlərin görülməsinə nail ola bilər. Mütəxəssis bu kimi halların qarşısının alınması üçün əmək qanunvericiliyində təkmilləşmələrin aparılmasını zəruri hesab edir. Hazırda işəgötürənlər tərəfindən işçilərlə əmək müqaviləsinin imzalanmaması vətəndaşların qanunsuz işdən azad olunması ilə nəticələnir ki, çox vaxt onların əmək hüquqlarını müdafiə etmək çətinlik törədir. Ona görə də hər bir işçi, ilk növbədə, işəgötürənlə əmək müqaviləsi bağlamalıdır.

Əmək bazarındakı qanunsuzluqlarla bağlı araşdırmaları davam etdirən Dövlət Məşğulluq Xidmətindən isə bu problemi həll etmək üçün əmək qanunvericiliyində dəyişikliyin olacağı bildirilir. Dövlət Məşğulluq Xidmətinin rəis müavini Şahbaz Xələfovun sözlərinə görə, hazırda əmək bazarında bir sıra problemlər mövcuddur ki, onlardan biri də işəgötürənlər tərəfindən işçilərin pensiya vaxtından əvvəl işdən çıxarılmasıdır.

Ş.Xələfovun qeyd etdiyinə görə, bu gün bəzi idarə və müəssisələr, eləcə də özəl firma və şirkətlər boş qalan və yaxud yeni yaradılan iş yerlərinə 50 yaşdan yuxarı vətəndaşları qəbul etmək istəmirlər. Bu təşkilatlar boş yerləri barədə məşğulluq xidməti orqanlarına məlumatlar vermir, istədikləri kimi işçi qəbulu həyata keçirirlər. Hətta son illər 35-40 yaşı olan cavan potensial işçi qüvvəsinin işə qəbulunun qarşısı alınır. Bu cür hallar əmək hüquqpozmalarının bir hissəsi hesab olunur və qanunları pozan həmin təşkilatlar barədə sərt tədbirlərin görülməsi vacibdir.

Şahbaz Xələfov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək qanunvericiliyinə müəyyən dəyişikliklərin edilməsi ilə bağlı təkliflərinin hazır olduğunu, yaxın zamanlarda hökumətə təqdim ediləcəyini bildirir. Burada işçilərin əmək hüquqları ilə bağlı bütün məsələlərin qanunvericilik çərçivəsində həll edilməsi, normal və keyfiyyətli iş şəraitinin təmin olunması, süni yaş məhdudiyyətlərinin aradan qaldırılması və digər məqamlar öz əksini tapıb. Bundan başqa, «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı»na bəzi dəyişikliklərin edilməsi də istisna olunmur. Belə ki, əhalinin yüksək əməkhaqqına malik iş yerləri ilə təmin olunması, işçilərin əmək və sosial hüquqlarının gücləndirilməsinə dair elementlərin proqramda öz əksini tapması nəzərdə tutulur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) isə işçilərin əmək hüquqlarının qorunması sahəsində əsas tədbirlərdən biri kimi özəl şirkətlərdə həmkarlar ittifaqlarının

yaradılmasını vacib hesab edir. Konfederasiyanın şöbə müdiri Çingiz Tağıyev qeyd edib ki, müəssisələrdə əmək qanunlarına riayət edilməsi üçün həmkarlar ittifaqlarının yaradılması zəruridir. Son zamanlar cavanların işdən uzuqlaşdırılması halları barədə bu təşkilata ünvanlanan müraciətlər araşdırılıb və yüzlərlə qanunsuz işdən azad edilən işçinin öz yerinə qaytarılması təmin olunub. Amma bir çox şirkətlərdə həmkarlar ittifaqları yaradılmadığından və işçilərlə əmək müqaviləsi bağlanılmadığından, işçilərin hüquqlarını qorumaq mümkün olmur.

İqtisadi İnkişaf Nazirliyinin Regionların inkişafı və Dövlət proqramları şöbəsinin müdiri Sahib Məmmədovun qəzetimizə bildirdiyinə görə, hökumət işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir, insanların məşğulluğunun təmin olunmasına güclü maddi dəstək verir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət siyasətinin başlıca hədəflərdən biri ölkədə iş yerlərinin yaradılmasının təmin edilməsidir. Qarşıya qoyulmuş əsas məqsədlərdən biri bölgələrdə yeni yaradılan müəssisələrdə əhalinin iş yerləri ilə təmin olunmasıdır. Ötən müddət ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bir milyondan çox iş yerinin yaradılması, ölkə üzrə işsizliyin səviyyəsinin azaldılması bu strategiyanın mühüm müsbət nəticələr verdiyini təsdiqləyir. Məşğulluq Strategiyanın uğurla həyata keçirilməsi əmək resurslarından daha səmərəli istifadəni stimullaşdırıb, iş tapmaqda çətinlik çəkənlər üçün iş yerlərinin təmin edilməsinə səbəb olub. Vətəndaşların işə qəbulu zamanı yaradılan süni əngəllərə gəlincə, S.Məmmədov bu məsələnin aidiyyəti qurumların həll etməli olduğunu bildirib.

Elbrus CƏFƏRLİ